09 oktyabr 2019-cu il tarixdə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Apellyasiya Şurasının növbəti iclası keçirilmişdir.

İclasda “Engin LTD” MMC-nin Dövlət Miqrasiya Xidmətinin 05.08.2019-cu il tarixli 7161837 və 7161815 nömrəli qərarlarının ləğv edilməsinə dair 11.09.2019-cu il tarixli şikayətinə baxılmışdır. Məlum olmuşdur ki, “Engin LTD” MMC 10.07.2019-cu il tarixdə Xidmətə Türkiyə Respublikasının vətəndaşı Tan Tayyara MMC-də kağız istehsalı üzrə məsləhətçi vəzifəsində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün iş icazəsinin və onun əsasında Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin alınması ilə bağlı müraciət etmiş, lakin Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 66.0.3-cü maddəsinə müvafiq olaraq əcnəbiyə iş icazəsinin və müvəqqəti yaşamaq üçün icazənin verilməsindən imtina edilmişdir.

Apellyasiya Şurası şikayətin dəlillərini işin materialları ilə birlikdə araşdıraraq, eləcə də Şuranın iclasında aparılan müzakirələri, Şura üzvlərinin məsələyə dair rəylərini, şikayət üzrə işin faktiki hallarını, gətirilmiş dəlilləri, toplanmış materialları və sübutları nəzərə alaraq, şikayətin təmin edilməsi haqqında qərar qəbul etmişdir.